# "ACWA Power" "yaşıl layihə"ləri ilə Azərbaycanın dayanıqlı inkişafını dəstəkləyir



**Azərbaycanın "yaşıl enerji" gündəliyinin reallaşmasında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin özünəməxsus yeri var. Bu şirkətlə əməkdaşlığın tarixi qısa olsa da, perspektivlər böyükdür.**

Əvvəla qeyd edək ki, "ACWA Power"in ölkəmizdə tikdiyi 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının (KES) tezliklə tam gücdə istismara verilməsi istiqamətində işlər davam edir. İndiyədək layihə çərçivəsində 30 külək turbini quraşdırılıb, 220/33 kV-luq yarımstansiyalardan birinin tikintisi başa çatdırılıb, digərində isə son tamamlama işləri aparılır.

"Xızı-Abşeron" KES-in təməlqoyma mərasimi 2022-ci il yanvarın 13-də olub. Layihə çərçivəsində hər biri 6 MVt gücündə olan 40 ədəd külək turbin qurğusunun quraşdırılması nəzərdə tutulub. Bunlardan 17-nin Abşeron rayonunun Pirəkəşkül kəndində, 23-nün isə Xızı rayonunun Sitalçay kəndində quraşdırılması planlaşdırılıb. Elektrik stansiyasında illik 1 milyard kilovat/saat elektrik enerjisi istehsal olunacaq, eyni zamanda 220 milyon kubmetrədək qaza qənaət ediləcək.

Stansiyanın təməli qoyularkən Prezident İlham Əliyevin dediyi sözləri xatırlamaq yerinə düşər: "Bu, çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq bu gün artıq biz bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır".

Bundan əlavə, Azərbaycanın Energetika Nazirliyi ilə "ACWA Power" şirkətinin 200 MVt gücündə Batareya Enerji Saxlanc Sistemi (BESS), 200 MVt gücündə quruda külək stansiyası və digər layihələr üzrə də müqavilələri var.

Bu günlərdə energetika naziri Pərviz Şahbazovun "ACWA Power" şirkətinin baş icraçı direktoru Marco Arcelli ilə görüşündə məhz görülən və görüləcək işlərdən bəhs edilib. "ACWA Power"in Azərbaycanda yeni layihələr vasitəsilə fəaliyyətini genişləndirməsi məmnunluqla qeyd olunub. Ölkəmizin "yaşıl enerji" gündəliyinin reallaşdırılmasında şirkətlə tərəfdaşlıq çərçivəsində quruda və dənizdə sənaye miqyaslı külək enerjisi istehsalı, habelə ötürülməsi layihələrinin icrası müzakirə edilib. "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tezliklə tam gücdə istismara verilməsi istiqamətində görülən işlər nəzərdən keçirilib. Həmçinin ixrac, eləcə də daxili istehlak məqsədilə yeni, əlavə "yaşıl enerji" güclərinin enerji sisteminə inteqrasiyası məqsədilə aparılan şəbəkə tədqiqatı çərçivəsində şirkətlə 200 MVt-lıq külək-elektrik stansiyası layihəsinin həyata keçirilməsinə dair fikir mübadiləsi edilib.

Görüşdə, eləcə də Naxçıvandan Türkiyəyə elektrik enerjisinin tədarükü məqsədilə aparılan araşdırmalar barədə məlumat verilib və burada "ACWA Power" şirkəti ilə külək enerjisi layihəsinin reallaşdırılması perspektivləri dəyərləndirilib. Söhbət zamanı dənizdə enerji istehsalı üzrə əməkdaşlığa da toxunulub. İxrac aspektində Qara dəniz sualtı kabeli və quruda Gürcüstan, Türkiyə vasitəsilə Azərbaycanı Avropa ilə əlaqələndirəcək interkonnektorların qurulması ilə bağlı görülən tədbirlərdən də bəhs edilib. Regionlararası bağlantıların, eyni zamanda elektrik enerjisi qədər məlumatların ötürülməsinin vacibliyi vurğulanıb. Hazırda fiber-optik komponentin enerji ötürücü xətti ilə paralel inkişaf etdirildiyi qeyd olunub.

Bir neçə kəlmə də belə geniş tərəfdaşlığa başladığımız bu şirkətin özü haqqında: Səudiyyə Ərəbistanının enerji, xüsusilə bərpaolunan enerji sektorunda aparıcı şirkətlərindən olan "ACWA Power" şirkəti 2004-cü ildə yaradılıb. Şirkət dünyanın bir sıra ölkələrində bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, duzsuzlaşdırılmış su istehsalı üzrə layihələrdə developer, investor və operator kimi iştirak edir.

"ACWA Power"lə tərəfdaşlığımızın etibarlı və perspektivliyini göstərmək üçün şirkətin təsisçisi və Direktorlar Şurasının sədri Məhəmməd Əbunəyyanın dövlətimizin başçısına Vaşinqton səfərindən sonra göndərdiyi məktubdan bir neçə cümləni belə xatırlatmaq kifayətdir. O, Prezident İlham Əliyevi qazanılmış diplomatik qələbə münasibətilə təbrik edir və ardınca yazır: "Bu nailiyyət Sizin ölkənizin sabitliyinə və firavanlığına qəti sadiqliyinizlə yanaşı, həm də çağırışları davamlı tərəqqi üçün imkanlara çevirərək uzaqgörənliklə və əzmkarlıqla rəhbərlik etmək bacarığınızı göstərir. Biz "ACWA Power" şirkəti olaraq Azərbaycanın tarixində bu mühüm məqamın şahidi olmaqdan şərəf duyuruq və sülhün, əməkdaşlığın bu yeni dövründə ölkənin dayanıqlı inkişafını dəstəkləməyə sadiq qalırıq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 13 sentyabr (№ 195).- S.7.